**Universal poçt rabitəsi xidmətlərinin göstərilməsi ilə bağlı zərərin kompensasiyası qaydalarının layihəsini və mənbələrinə aid təkliflərini hazırlanması barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI

I. "Poçt rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 31 avqust tarixli 115 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə 15 gün müddətində:

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

qüvvədə olan qanunvericilik aktlarının "Poçt rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini;

"Poçt rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

2. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi aidiyyəti dövlət orqanları ilə birlikdə;

həmin Qanunun 4.2-ci maddəsində nəzərdə tutulmuş poçt göndərişlərində göndərilməsi qadağan olan malların və əşyaların siyahısının layihəsini;

həmin Qanunun 13.8-ci maddəsində nəzərdə tutulmuş poçt göndərişlərinin saxlanılması, açılması, satışı və məhv edilməsi qaydalarının layihəsini;

həmin Qanunun 15.6-cı və 25.4-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Maliyyə Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Ədliyyə Nazirliyi ilə birlikdə həmin Qanunun 11.5-ci maddəsində nəzərdə tutulmuş universal poçt rabitəsi xidmətlərinin göstərilməsi ilə bağlı zərərin kompensasiyası qaydalarının layihəsini və mənbələrinə aid təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

II. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının hüquq (1-ci bənd), nəqliyyat və rabitə (2-ci bənd), iqtisadiyyat və maliyyə-kredit siyasəti (3-cü bənd) şöbələrinə həvalə edilsin.

III. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 10 sentyabr 2004-cü il
190s